# Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Türkiyənin TRT WORLD kanalına müsahibə verib

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Türkiyənin TRT WORLD kanalına müsahibə verib.




AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi TRT WORLD-ün müxbirinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlərlə bağlı sualının cavabında bildirib ki, Ermənistan artıq 30 ilə yaxındır Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatlar işğala son qoyulması, qaçqın və köçkünlərin doğma yurdlarına qayıtması barədə qətnamə və qərarlar qəbul ediblər. Lakin Ermənistan beynəlxalq qurumların qərar və qətnamələrinə məhəl qoymur. Bunun da səbəbi beynəlxalq aləmdə mövcud olan ikili standartlardır. Münaqişənin sülh yolu ilə həllinə dair Azərbaycanın dəyişməz mövqeyi ondan ibarətdir ki, ölkənin ərazi bütövlüyü bərpa olunmalı, qaçqınlar və məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar.

Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün həyatı yaşadığı, onların ehtiyaclarının necə ödənildiyi barədə sualı cavablandıran Əli Həsənov deyib ki, dövlətimiz 30 ilə yaxındır bu qəbildən olan insanların problemlərinin həlli ilə məşğuldur. Azərbaycan hökuməti qaçqınların və məcburi köçkünlərin sosial-məişət problemlərini həll etmək üçün mühüm qərarlar qəbul edib və uğurla yerinə yetirib. Çadır şəhərcikləri ləğv edilib, yeni qəsəbələr salınıb, qaçqın və məcburi köçkünlər mənzillə təmin olunublar. Bu proses davam edir. Ancaq insanlar öz doğma torpaqlarına, ata-baba yurdlarına qayıtmaq istəyirlər. Əgər sülh danışıqları nəticə verməsə, Azərbaycan dövləti öz ərazilərini işğaldan azad etmək üçün bütün vasitələrdən istifadə edəcək. Azərbaycan Ordusu buna tam hazırdır. Aprel döyüşləri ordumuzun gücünü göstərdi.

Azərbaycan öz haqq işini müdafiə etmək, Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün səylər göstərir. Artıq bir çox uğurlarımız da var. Dünyanın 10-dan çox ölkəsinin parlamenti, ABŞ-ın 20-dən artıq ştatının qanunverici orqanı Xocalı faciəsini soyqırımı kimi tanıyıb.

Müsahibədə Azərbaycan-Türkiyə strateji müttəfiqliyinə toxunan Əli Həsənov qeyd edib ki, bütün məsələlərdə qardaş ölkələrimiz daim bir mövqedən çıxış edir. Bu mövqe bizi gücləndirir. Onu da deyim ki, qardaş ölkələrimizin birliyi heç bir başqa ölkənin ərazi bütövlüyünü pozmağa, daxili işlərinə qarışmağa yönəlməyib. Bizim birliyimiz bölgədə və dünyada sülhə, inkişafa və insanlar arasında əmin-amanlığa xidmət edir.

Dövlətimizin balanslaşdırılmış siyasət yürütdüyünü vurğulayan Əli Həsənov bildirib: “Azərbaycan öz qonşuları ilə münasibətlərində ortaq maraqlar tapmağa çalışır. Biz öz siyasətimizi bu istiqamətdə davam etdiririk.

Artıq Azərbaycanın qlobal mövqeyi Avropada daha aydın görünməyə başlayıb”, - deyən Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan bir sıra qlobal enerji və nəqliyyat layihələrinin müəllifidir. Artıq logistik mərkəzə çevrilən Azərbaycan bu layihələri qardaş Türkiyə və digər dostlarının dəstəyi ilə reallaşdırıb.